**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

*№1* *Humanitar elmlər seriyası* *2015*

**UOT 94(479.24)**

# ÖYRƏNCİLƏRİN ELMİ EKSKURSİYALARI İRAN İSLAM RESPUBLİKASINDA KÜTLƏVİ TURİZM TƏLİMİNİN BAŞLANĞICI KİMİ

**Ə.ƏLİƏSĞƏRİ**

***AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu***

***aliasghari.amir@yahoo.com***

*Məqalə kütləvi turizm təliminin başlanğıcı kimi öyrəncilərin elmi ekskursiyalarına həsr olunmuşdur. Elmi ekskursiyaların iki başlıca istiqaməti seçilmişdir: öyrəncilərin səfərləri və tələblərin səfərləri. Cəmiyyətin inkişafını stimullaşdıran factor kimi elmi ekskursiyaların əhəmiyyəti vurğulanır. Bu proses islam dini və İran vətəndaşarının həyat tərzi baxımından təhlil olunmuşdur.*

**Açar sözlər:** şagird, tələbə, İran İslam Respublikası, kütləvi turizm, təlim, düşərgə, səyahət, səfər, İslam dini

Hər bir ölkədə turizmi inkişaf etdirmək üçün bu işin icraçıları və bu işlə əlaqədar məsuliyyət daşıyanlarla yanaşı, əhalinin də turizmlə bağlı prinsip və qaydaları öyrənməsi lazımdır. İranda əhali iki mühüm rolu – turist və ev sahibi rolunu yerinə yetirir və bu rolların hər biri ilə bağlı biliyə malik olması və texnikaları bilməsi lazımdır. Turist rolunda səyahətə çıxarkən dini tələbləri yerinə yetirməklə yanaşı, səyahətin üstünlüklərindən də yararlanaraq bir müsəlmanın simasını da nümayiş etdirməlidirlər ki, bu da xaricilərdə İrana səfər etmək marağının oyanmasına imkan yaradacaqdır.

Ev sahibi rolunda da müsəlman iranlılar qonaqpərvərlikdə məşhur idi. Bu prioritetlər də xarici turistlərin İrana cəlb edilməsində olduqca mühüm faktor kimi çıxış edə bilər. Belə ki, əhalinin ümumi təhsili həm onların özü, həm də ölkə üçün olduqca faydalı olacaqdır. Bütün əhalini turizmin ilkin prinsipləri ilə tanış etmək mümkün olan yollardan biri də dərslərin öyrənilməsini dərinləşdirmək və sosial inlişaf məqsədilə məktəblilər və tələbələr üçün ekskursiyalar təşkil edilməsidir. Qeyd edilən səyahətlər elə xüsusiyyətlərə malikdir ki, bunlardan istifadə etməklə əhalini yeniyetməlik dövründən bilikli turistlərə və ev sahiblərinə çevirmək olar. Əlbəttə, bu xüsusiyyətlərin bəzilərini də bu

səyahətlərin proqramına əlavə etmək lazımdır ki, turizm fenomeni vasitəsilə bütün əhalini turizmin prioritetləri və turist və ev sahibi kimi yerinə yetirməli olduqları vəzifələrlə tanış etmək mümkün olsun. Bu məqalədə məktəblilər və tələbələrin səyahətlərində mövcud olan xüsusiyyətləri göstərmək üçün İranda ekskursiyalar şəklində həyata keçirilən adı çəkilən bu səyahətlərin vəziyyəti öz əksini tapır. Nəticə hissəsində isə bunlara əlavə etmək mümkün olan xüsusiyyətlər təklif olunur.

**Şagird səfərləri**

İslam dinində təlim-tərbiyə sisteminin məqsədlərindən biri şagirdlərin yüksək ilahi dəyərlərə yönləndirilməsidir. Yeniyetmələr və gənclərin malik olduqları istedad və potensialların islam inqilabının hədəflərinin həyata keçirilməsi istiqamətinə yönləndirilməsi cəmiyyətin maddi və mənəvi xoşbəxtliyi və inkişafının təminatıdır (1, 49).

İnsan təlim-tərbiyə sayəsində cəmiyyətdə həyatını davam etdirmək gücü əldə edir. İnsan sosial bir varlıq kimi cəmiyyətin xüsusiyyətləri, adət-ənənələri, hüquq və məsuliyyətləri ilə tanış olmalıdır. Bu xüsusiyyətlər məlumatlı və təcrübəli insanlar sayəsində əldə edilir. Zaman keçdikcə, daha böyük ehtiyaclar və imkanlar yarandıqca təsadüfi və nizamsızlıqla məhdudlaşan nisbi təhsil tərbiyə və təhsilin tələbatlarına cavab verə bilmədi, ailələr və yaşlılar tərəfindən verilən dağınıq təhsil get-gedə yerini son məqsədi yeni nəsli tərbiyə etmək və onları həyata hazırlamaq olan sistemli və mütəşəkkil təşkilatlara verdi (2, 16). Yuxarıda qeyd olunan məqsədə nail olmaq üçün iki yol vardır: Rəsmi və dərslərlə məhdudlaşan fəaliyyətlər; dərslərlə məhdudlaşmayan qeyri-rəsmi fəaliyyətlər, başqa sözlə desək, proqramdan kənar fəaliyyətlər.

Məktəblərin təhsil pqroqramı təhsil və ya dərs proqramı adı altında mütəşəkkil və sistemli təhsil fəaliyyətlərinə malik idi. İnsanlar bu proqramın effektli olduğunu hesab edirdilər. Amma araşdırmalar nəticəsində dərs proqramlarına dolayı dərslərin artırılması ehtiyacının olduğu müəyyən edilməklə yanaşı dolayı təhsilin təlim-tərbiyə məqsədlərini həyata keçirmək məqəsdi güddüyü və birbaşa təhsillə müqayisədə daha böyük təsirə və effektə malik olduğu müəyyən edilmişdir. Çünki həm müəllimlər, həm də şagirdlər sözügedən proqram çərçivəsində xüsusi bir sərbəstlik hiss edir, bu səbəblə onlarda daha böyük rəğbət və həvəs yaranır.

Təlim-tərbiyə prosesində anlayışlar və onların müxtəlif məzmunlarının ötürülməsi zamanı davamlı olaraq bəzi anlayışların danışıqla və auditoriya çərçivəsində ötürməyin tam mümkün olmadığnın şahidi oluruq. Həmin anlayışların dinləyiciyə tam şəkildə ötürülməsi üçün müəllim və tərbiyəçiyə münasib şərait və mühiti lazımdır. Şagird səfərləri müəllimə və tərbiyəçiyə bir çox anlayışların ötürülməsində yardım edən mühitə, proqramlara və şəraitə malikdir. Təbii ki, vasitə özünəməxsus tərbiyə metodu ilə digər məktəblərlə müqayisədə tamamilə fərqli keyfiyyətə malikdir. Həmin mühitdə məktəbdə deyilməmiş qalan bir çox sözləri demək olar. Məktəb və ev mühitindən kənar mühit elə

imkanlara və xüsusiyyətlərə malikdir ki, heç bir ev və məktəb mühitində bu imkanları yaratmaq mümkün deyil. Sosial və təbii həyatın real mühitində kitablardan və dərs proqramlarından mənimsənilməyən praktika və təcrübələr vardır. Təbiət və cəmiyyət zəngin təhsil mənbələridir. Şagird onlarla qarşılaşmadan onların verdikləri dərsləri öyrənə bilməz. Bu zaman şagird həm də onu öyrənir ki, həyatda elə dərslər var ki, onları öyrənmək üçün sakit qalmaq və bir guşəyə çəkilmək olmaz, onları mənimsəmək üçün səy göstərmək lazımdır (7, 83).

Təbiət qoynunda yaşamağın xüsusi bir zövq və səfası vardır. Müasir dünyada, xüsusilə şəhərlərdə onun az nümunəsinə rast gəlmək olar. Bir və ya bir neçə gün azad təbiəq qoynunda yaşamaq müasir insanın təbii ehtiyacıdır və insanların ona çox böyük ehtiyacları vardır.

Yaranış forması ilə tanışlıq və keçmiş insanların həyatlarından ibrət dərsi götürmək, təbiət və tarix elmləri ilə bağlı çoxlu məlumatlar əldə etmək, təbiətə diqqət yetirmək, təhsil, səhiyyə, təmizlik, qayda-qanun, nizam-intizam və bu kimi çoxlu sayda anlayışları digər mühtlərlə müqayisədə səfər və səyahət mühitində daha yaxşı mənimsəmək olar.

Müasir dövrün qabaqcıl təlim-tərbiyə sistemləri təhsili həyatın bir hissəsi deyil, onun özü ilə eyniləşdirir, həyatın özü hesab edir. Modern sistemlər təhsil vermək üçün sərhəd tanımırlar, divarsız auditoriyaları təbliğ edirlər, hasarsız məktəbləri inkişaf etdirirlər. Bu məktəblərdə düşərgə və düşərgə fəaliyyətləri xüsusi əhəmiyyət daşıyır. Müasir təhsil sistemlərində düşərgə sosial həyat təhsilidir, ev və məktəb təhsilinin təkmilləşdiricisidir (9, 64).

Şagird səfərləri təkmilləşdirici və proqramdan kənar bir fəaliyyət kimi siniflərin rəsmi çərçivələrindən kənar və daha cəlbedici məzmunla mənimsəmənin daha zövqverici olmasına zəmin yaradan təlim-tərbiyə prosesidir. Mənimsəmə mühiti real olduğu üçün öyrənmə öyrənənlərin həyatına qalıcı təsir göstərir. Düşərgə dünyasında fərdlər öz hüquq və vəzifələri, müşahidə və dinləmək mədəniyyəti ilə tanış olur, müstəqil həyatı və onun dərk edilməsini təcrübə edir, yardımlaşma və məsuliyyət hissini sınaqdan keçirir, sədaqət, vəfa, təşəkkür, yoldaşlara qarşı sevgi və düşünməni gücləndirir, özündə sosial olma hissi yaradır.

Düşərgə praktiki həyatdır. Şagirdlər bir qrup, bir məkan və bir zaman kəsiyində birgə yaşayış formasını, bir-birlərinin davranışlarına qarşı dözümlülük nümayiş etdirməyi, bir-birlərinin fikirlərinə hörmət etməyi, məsuliyytə götürməyi, həmin məsuliyyəti düzgün şəkildə yerinə yetirməyi, minimum imkanlardan maksimum şəkildə istifadə etməyi, isti və soyuğa dözməyi, fövqəladə təbiət hadisələri baş verdiyi zaman necə davranmağı, özünü və ailəsini necə qorumağı, güclərini, istedadlarını və imkanlarını aşkara çıxarmaqla, yardımlaşma öyrənirlər. Düşərgə həyatında onlara yardımlaşma və əməkdaşlıq etmək, məsləhətə və məşvərət, qərarların qəbul edilməsində iştirak etmək hissi güclənir. Düşərgənin ən mühüm özəlliklərindən biri də budur ki, şagird Allahın əsəri olan təbiətdən zövq alır, ev və məktəb mühitində mümkün olmayan

allahtanıma dərsi alır (11, 39).

Qeyd olunan dərslər yeniyetmə yaşlarında edilən səfərlər zamanı öyrənilən dərslərdir. İmam Həsən Əsgəri (ə) buyurmuşdur: "Öyrənənlərin əhval-ruhiyyəsi gənc və istedadlı olduğu zamanlarda onlara öyrədin, yaşlanıb zəiflədikdən sonra onlardan əl çəkin!" (12, 1).

**Şagird düşərgəsi təhsilinin tərifi**

Düşərgə fərdlərin müəyyən məqsədlərlə qrup halında müəyyən bir məkana getməsinə deyilir. Həmin səfalı mühitdə qeyri-rəsmi dərslərdən və orijinal məzmunlardan istifadə edilərək qrupa yeni ruh bəxş edilir, maairflənmələrinə və özlərini tapmalarına stimul verilir. Şagirdər fəaliyyət göstərdikləri zaman onların təbiət qoynundakı fəaliyyətləri təravət, sevinc və fərəh hissi ilə müşayiət olunur. İstirahət etdikləri zaman düşünür, məlumatlarının dərinliklərinə varır və özlərini tapa bilirlər (13, 8). Dehxoda lüğətində düşərgə sözünün etimologiyasına görə ordunun və ya çoxlu sayda insanın toplaşdığı yer anlamı verən türk-monqol sözü olduğu qeyd edilmişdir. Araşdırma zamanı məlum olur ki, ordu sözü əvvəllər hərbi qüvvələrin və qoşunların bir müddət bir yerdə qalması anlamını ifadə etmiş, zaman keçdikcə sözün məna yükü daha da genişlənmişdir (3, 10).

**Şagird düşərgəsinin tarixi**

Dünyada şagird düşərgəsinin banisi ingilis generalı Pavel hesab edilir. Afrikanın yerli xalqlarının həyat tərzi və onların ingilislərlə mübarizədə təbiət amilləri və təbiət imkanlarından istifadə edərək qələbə çalması istiqamətində aparılan araşdırmalardan sonra Pavel belə bir nəticəyə gəlmişdir ki, qələbə qazanmaq üçün əsgərlər bir müddət təbiət qoynunda düşərgə salmalıdırlar ki, döyüşlərdə uğur qazana bilsinlər. O, İngiltərəyə qayıtdıqdan sonra ordudan istefa verərək bütün diqqətini gənclərin təlim-tərbiyəsinə ayırdı. 1907-ci ildə Bradel adasında ilk düşərgə təşkil etməklə rəsmi fəaliyyətə başladı. Tehranda ilk düşərgə 1304-cü ildə yaradılmışdır (4, 10).

**Düşərgə İslamda və məsumların (ə) həyatında**

Peyğəmbər (s) və məsum imamların (ə) qrup səfərlərində və ya ziyarətlərdə iştirakı düşərgə ilə çox yaxından oxşarlığı olan cəhətlərdəndir. Böyük şəxsiyyətlər bu səfərlər zamanı öz səfər yoldaşlarına yüksək əxlaqi dərslər vermişlər. Başqalarına xidmət, qarşılıqlı yardımlaşma, işlərdə həmkarlıq, fədakarlıq, səfər yoldaşına üstünlük verilməsi, onların hüquqlarının qorunması və s. mühüm dərslərdən olmuşdur (1, 52).

**İranda düşərgə**

Hal-hazırda İran şagirdləri təhsilin bütün mərhələlərində məktəb tərəfindən təşkil edilmiş düşərgə və gəzintilərdə iştirak edərkən təhsil mədəni, etik, ictimai və istirahət məziyyətlərindən istifadə etməklə yanaşı turistik məkanlar və səfər qanunları ilə tanış olurlar. Müəllimlər və təlimatçılar təhsil kurslarında iştirak etməklə Təhsil Nazirliyi tərəfindən yaradılmış xidmətlərin iştirakçısına çevrilməklə yanaşı sözügedən düşərgələrə rəhbərlik forması ilə tanış olurlar.

**Tələbə səfərləri**

Tələbələr ruh yüksəkliyini artırmaq, özünə güvənc hissini gücləndirmək, dini, mədəni abidələrlə tanış olmaq, milli kimlik hissini gücləndirmək, elmi bilikləri dərinləşdirmək, müqəddəs məkanları ziyarət, təbiət mənzərərlərinə və istirahət guşələrinə ekskursiya, mənimsənilən dərslərlə bağlı bilgiləri daha da dərinləşdirmək məqsədilə tələbə səfərlərinə çıxırlar. Hal-hazırda tələbə səfərləri dərs vahidlərinə əsasən tələbə düşərgələri, təhsil və tədqiqat səfərləri olmaqla iki qrupa bölünür.

**1. Tələbə düşərgələri**

Elmlər Nazirliyinin 10.10.1386-cı il tarixli göstərişinə əsasən tələbə düşərgələri texniki araşdırmaları Universitet Mədəniyyət Şurasının icazəsi ilə təşkil olunan tələbələrin qrup səfəridir. Bu səfərlər iki qrupa bölünür:

a) Mədəni düşərgələr siyarət, idman, incəsənət, səyahət, mədəni və incəsənət konfranslarında iştirak tipli səfərlərə şamil olur

b) Elmi düşərgələr sərgilər, ixtisaslaşmış səfərlər, konfranslar, iclaslar, elmi görüşlər, təhsil və tədqiqat səfərlərində iştiraka şamil olur.

Düşərgələrin məqsədləri aşağıdakılardan ibarətdir:

a) İslam dəyərlərindən qaynaqlanan qrup həyatının təcrübədən keçməsi üçün münasib baza yaratmaq;

b) Gənclərin etiqad və etik görüşlərini gücləndirmək və möhkəmləndirmək;

c) Müxtəlif sosial, etik və mədəni sahələrdə təcrübə əldə etmək;

d) Sosiallaşma prosesinə yardım və sosial vərdişlərin inkişaf etdirilməsi;

e) Fərdi istedadların inkişafı və çiçəkləndirilməsi üçün münasib zəmin yaratmaq;

f) Dünyanın və İranın tarix, coğrafiya və mədəniyyəti ilə bağlı mövcud olan bilikləri artırılması, iştirakçıların İran və islam mədəniyyəti və tarixi ilə tanışlığı. İştirakçıların fərdi bilikləri, dərk və idrak gücünün artırılması;

g) Vətənpərvərlik və dövlətə sevgi hissini gücləndirmək strategiyası;

h) Fərdləri məhrum regionların əhalisinin həyat şəraiti ilə tanış etmək (5)

**2. Dərs vahidləri ilə əlaqəsi olan təhsil və tədqiqat səfərləri**

Tələbələr dərs vahidlərini mənisəyərkən müəllimin təyinatı ilə təhsil-tədqiqat səfərlərinə çıxırlar. Bu səfərlər məqsədyönlü və proqramlı olduğu üçün tələbələrin ixtisas bilgisini artırmaqla yanaşı tələbənin təhsil səfəri təcrübəsinin yaranması ilə nəticələnir. Tələbələr sözügedən səfərlərin məziyyətlərindən faydalanmaqla yanaşı əməli olaraq turizm təcrübədən keçirir, turda iştirak zərurətləri bir çox aspektləri ilə tanış olurlar. Təcrübəli turistlərin və məlumatlı ev sahiblərinin olması ölkə turizminin inkişafına zəmin yaradır.

**İranda tələbə turizminin tarixi**

İslamın İrana gəlişi ilə təhsil və mənimsəmənin vəziyyəti dəyişdi. İslam dininin bəşəriyyətə ərməğan etdiyi qiymətli hədiyyə bünövrəsi mütərəqqi, sistemli, eyni zamanda sadə təşkilatlanmaya əsaslanan islam mədəniyyətidir. İslamın ilk təlimləri müsəlmanların ilk müəllimi və təlimatçısı olan İslam

peyğəmbərinin (s) dəvəti ilə məscidlərdən başladı və sonralar genişləndi. İslamın təlim-tərbiyə metodları müəllim və tələbələrə daha çox azadlıq verəcək şəkildə tənzimlənmişdi. İslam peyğəmbəri (s) elm öyrənməyin vacib olduğunu bəyan etməsi, onu əldə etmək üçün hətta uzaq səfərə çıxmağı tövsiyyə etməsi səfərin öyrənmək üçün lazım olan dəyərlərindən biri olduğunu nümayiş etdirirdi. Səfər zamanı tələbələr təhsil mərkəzindən başqa bir yerə gedir, məlumat və biliyin artırırdılar. Bəzi müəllimlər tələbələrinə bir yerdən başqa bir yerə səfər etməyi tövsiyə edirdilər. Çünki axar sular ürək oxşayan və canlı olur, gölməçələrin suyu isə üfunət götürür və rəng dəyişikliyinə uğrayırlar. Hər hansısa tələbə yerli müəllimlərdən öyrəndiklərini tətbiq etmək və ya biliklərini daha da artırmaq üçün vətənini tərk edib bir qrup tələbə ilə həcc və ya ticarət karvanı ilə səfərə çıxırdı. Əlbəttə, tələbələr səfər zamanı təhlükələrlə qarşılaşırdılar, bəziləri yol əsnasında aclıqdan və susuzluqdan canını tapşırırdı, bəziləri soyğunçular tərəfindən soyğuna məruz qalır, bəziləri qətlə yetirilirdilər. Bütün bu çətinliklər elm susuzu olan tələbələrə mane olmurdu (6, 90).

Uzaq və uzunmüddətli elmi səfərlərin xərci adətən çox olurdu. Bəzi səfərlərin xərcləri tələbələrin ataları, bəzilərinki imkanlı insanlar tərəfindən təmin edilirdi. Yoxsul tələbələr uzunmüddətli aclığa dözərək, bəzən əyin paltarlarını sataraq və ya fəhləlik edərək səfər xərclərini təmin edirdilər. Araşdırmalar göstərir ki, bəzi müəllimlər yerli olmayan tələbələri yemək və yatmaq üçün evlərinə dəvət edirdilər. Həm müəllimlər, həm də tələbələr elmi səfərlərə çıxmışlar. Müəllimlər və tələbələrin bu canlandırıcı və ruh yüksəkliyi gətirən gediş-gəlişləri islam dünyasının bütün sahələrinə aid idi. Bunun nəticəsində mədəni əlaqələr kəsilmədi. İslam dünyasının bütün sahələrində mövcud olan bu hərəkatın azadlığı nəticəsində müxtəlif regionların əhalisi arasındakı fikir mübadiləsi öz dinamikliyini itirmədi. Bu da öz növbəsində İslam dünyasında islam mədəniyyətinin inkişafına səbəb oldu (8, 116).

Bu cərəyan dünyada elmin inkişafına da səbəb oldu. Alimlərin həyat və fəaliyyətləri maraqlı hadisələrlə doludur. İranlıların elmə qarşı olan sevgisi bu ölkədə elm və mədəniyyətin inkişafına, islami biliklərin müxtəlif sahələrinin görkəmli və mühüm alimlərinin İrandan çıxmasına səbəb olmuşdur (10, 54). Səduq, Nasir Xosrov, Əbi Əli, Razi, Sədi, Cami, Hafiz, Biruni və çoxlu sayda iranlı alim uzun illər öz vətənlərini tərk edib elm əldə etmək üçün səfərlərə çıxmışlar.

İranda tələbələrin səfərləri təhsil mərkəzlərinin dərsin mənimsənilməsinin dərinləşdirilməsi tədqiqatçı tələbələrin sosial inkiaşafını təmin etmək kimi məqsədlərinə xidmət etməklə yanaşı turizm təhsilində istifadə edilməsi faydalı olan bir sıra xüsusiyyətlərə malikdir. Sözügedən səfərlər gənclərə təbiət qoynunda məskunlaşma, əməkdaşlıq, qarşılıqlı yardımlaşma, qərarların qəbul edilməsi, məsuliyyət qəbul etmək, ictimai olmaq hissi, qarşılıqlı dözümlülük, səfərdə gigiyenaya riayət, qayda-qanun, nizam-intizam, təfəkkür, müşahidə, dinləmək, diqqətli olmaq, incəsənət sahələrinə sevgi bəsləmək, isti və soyuğa dözmək, fövqəladə hadisələr zamanı nümayiş etdirilən davranış, həmin

hadsiələr zamanı insanın özünü və ailəsini qoruması xüsusiyyətlərinə malikdir. Bu səfərlər sayəsində gənclər turizm davranışlarını və qonaqpərvərlik vərdişlərini mənimsəyə bilərlər. İmam Həsən Əsgəri (ə) buyurmuşdur: “Gənclər öyrənmək üçün lazım olan ən yaxşı zaman fürsəti ilə tanış olmalıdırlar.” Əlbəttə, daha çox faydalanma və elmi bilikləri artırmaq üçün aşağıdakı xüsusiyyətlər təklif edilir: elə təlim-tərbiyə üsulu seçilməlidir ki, tələbələr turistik məkanlar, gəzintinin əlverişli zamanları, səfər tədarükü, yerli əhalinin ruhiyyəsi, adət-ənənələri, qəbul və məskunlaşma mədəniyyəti, nəqliyyat vasitələrindən istifadə qaydaları, büdcənin tənzimləndirilməsi, səfər proqramının tənzimləndirilməsi forması, qiymət münasibliyi, elmi və sistemlilik özəlliyinə malik olan səfər idarələrinin turlarından istifadə forması ilə tanış ola bilsinlər. Bu şəkildə sözügedən səfərləri əhalinin ümumi təhsili üçün qızıl fürsət hesab etmək olar.

## ƏDƏBİYYAT


6

8

12

13


## НАУЧНЫЕ ЭКСКУРСИИ УЧАЩИХСЯ КАК НАЧАЛО ОБУЧЕНИЮ МАССОВОМУ ТУРИЗМУ В ИСЛАМСКОЙ РЕСПУБЛИКЕ ИРАН


**А.АЛИАСГЕРИ**



**РЕЗЮМЕ**

Статья посвящена научным экскурсиям учащихся как началу обучения к массовому туризму. Выделено два основных направления научных экскурсий: поездки учеников и поездки студентов. Подчеркивается важность научных экскурсий как стимулирующего развитие общества фактора. Данный процесс анализирован с точки зрения исламской религии и образа жизни граждан Ирана.



**Ключевые слова:** ученик, студент, Исламская Республика Иран, массовый туризм, лагерь, путешествие, исламская религия

# SCIENTIFIC EXCURSIONS OF PUPILS AS THE BEGINNING OF MASS TOURISM TRAINING IN THE ISLAMIC REPUBLIC OF IRAN

**A.ALIASGARI**

**SUMMARY**

The article is devoted to scientific excursions of pupils as the beginning of mass tourism trainings. Two main directions of scientific excursions are allocated: pupil trips and students trips. Importance of scientific excursions as the factor stimulating the development of a society is emphasized. This process is analyzed from the point of view of Islamic religion and the life style of the citizens of Iran.

**Keywords:** pupil, student, Islamic Republic of Iran, mass tourism, camp, voyages, Islamic religion